*Filologiya və pedaqogika: elmi araşdırmalar 2025, C.2 № 6*
*Philology and pedagogy: scientific studies 2025, V.2 № 6*

*https://doi.org/10.30546/114578.2025.11.5062*

# ANTROPONİMİKANIN BƏZİ NƏZƏRİ MƏSƏLƏLƏRİ

**Esmira Məmmədova**
*Azərbaycan Dillər Universiteti*
*https://ORCID.org/0009-0003-5015-8068*
*memmedovaesmira@gmail.com*

**Xülasə**

Antroponimika onomastikanın insan adlarını öyrənən bir sahəsi olaraq dilçiliyin aktual və geniş tədqiq olunan istiqamətlərindən biridir. Şəxs adları (antroponimlər) yalnız nominativ funksiyanı yerinə yetirmir, həm də xalqın tarixi, mədəniyyəti, dini dünyagörüşü, milli-mənəvi dəyərləri, hətta sosial və siyasi prosesləri haqqında qiymətli informasiya daşıyır. Bu baxımdan, Azərbaycan dilinin antroponimik sistemi özünəməxsus xüsusiyyətləri, zənginliyi və çoxqatlılığı ilə fərqlənir.

Azərbaycan xalqı əsrlər boyu müxtəlif sivilizasiyalarla təmasda olmuş, türk, ərəb, fars və rus mədəniyyətlərinin təsirini qəbul etmiş, eyni zamanda özünəməxsus antroponim formalaşma modellərini qoruyub saxlamışdır. Şəxs adları bu təsirlərin canlı izlərini daşımaqla yanaşı, həm də Azərbaycan dilinin leksik, morfoloji və semantik imkanlarını əks etdirən mühüm faktlardır.

Bu məqalədə Azərbaycan dilinin antroponimik sistemi tarixi-linqvistik, funksional və üslubi aspektlərdən təhlil ediləcək, adların struktur xüsusiyyətləri, semantik təbəqələşməsi və sosial-mədəni rolu araşdırılacaqdır.

**Açar sözlər:** şəxs adı, ata adı, təxəllüs, ləqəb dil xüsusiyyətləri.

# SOME THEORETICAL ISSUES OF ANTHROPONYMICS

**Esmira Mammadova**
*Azerbaijan University of Languages*

**Abstract**

Anthroponymics, as a branch of onomastics that studies human names, is one of the current and widely studied areas of linguistics. Personal names (anthroponyms) perform not only a nominative function, but also carry valuable information about the history, culture, religious worldview, national-spiritual values, and even social and political processes of the people. In this regard, the anthroponymic system of the Azerbaijani language is distinguished by its unique features, richness, and multiplicity.

The Azerbaijani people have been in contact with various civilizations for centuries, have accepted the influence of Turkic, Arab, Persian and Russian cultures, and at the same time have preserved their own unique anthroponymic formation models. Personal names, in addition to bearing the living traces of these influences, are also

important facts reflecting the lexical, morphological and semantic possibilities of the Azerbaijani language.

In this article, the anthroponymic system of the Azerbaijani language will be analyzed from historical-linguistic, functional and stylistic aspects, the structural features of names, semantic stratification and socio-cultural role will be investigated.

**Key words:** personal name, patronymic, pseudonym, nickname, linguistic features.

## НЕКОТОРЫЕ ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ АНТРОПОНИМИКИ

**Эсмира Мамедова**
*Азербайджанский университет языков*

**Резюме**

Антропонимика как раздел ономастики, изучающий человеческие имена, является одним из актуальных и широко изучаемых направлений языкознания. Личные имена (антропонимы) выполняют не только номинативную функцию, но и несут в себе ценную информацию об истории, культуре, религиозном мировоззрении, национально-духовных ценностях и даже общественно-политических процессах народа. В связи с этим антропонимическая система азербайджанского языка отличается уникальными особенностями, богатством и многообразием.

Азербайджанский народ на протяжении веков находился в контакте с различными цивилизациями, испытал влияние тюркской, арабской, персидской и русской культур, сохранив при этом свои уникальные модели антропонимического образования. Личные имена, помимо того, что несут в себе живые следы этих влияний, также являются важными фактами, отражающими лексические, морфологические и семантические возможности азербайджанского языка.

В данной статье будет проанализирована антропонимическая система азербайджанского языка в историко-лингвистическом, функционально-стилистическом аспектах, будут исследованы структурные особенности имён, семантическая стратификация и социально-культурная роль.

**Ключевые слова:** личное имя, отчество, псевдоним, прозвище, лингвистические особенности.

### Giriş/İntroduction

Maddi varlığı öyrənmək, onu dərk etmək üçün duyulan, düşünülən hər şeyin tarixən adlandırılması başlıca şərt olmuşdur. İnsan təfəkkürünün məhsulu olan hər nə varsa, onun hamısı adla – sözlə işarə olunur, adlandırılır. Buradan da aydın olur ki, adlar – sözlər dilin varlığını təşkil edir. Buna görə də deyilir ki, *sözsüz dil, dilsiz də söz yoxdur və ola da bilməz* [Qurbanov, 2019:13]. Adlar isə iki yerə bölünür:

1) ümumi adlar − apelyativ vahidlər; 2) xüsusi adlar − onomastik vahidlər.

Onomastikanın əsas problemlərindən biri sistemlərarası əlaqədir. Onomastik sistemin daxilində onomastic yarımsistemlər və ya mikrosistemlər mövcuddur. Antroponimlərin əsasında bu məsələyə aydınlıq gətirək. İlk növbədə, antroponim nədir? − sualına cavab tapaq.

Onomastikanın əsas sistemləri toponimika, antroponimika, etnonimika, zoonimika, hidronimika, ktematonimika və kosmonimikadır. Bu sistemlərin isə öz daxilində yarım-mikrosistemlər vardır ki, antroponimikada buyarımsistemlərə aşağıdakılar daxildir: Şəxs adları, soyadlar, ata-baba adları, ləqəblər, təxəllüslər, ayamalar. Bu əlaqələr onomastik əlaqələr sistemidir. Onomastik system və yarımsistemləe dilin leksik sistemi ilə dialektik əlaqədədirvə biri digərindən asılıdır.

Azərbaycan dilinin olduqca zəngin antroponimik sistemi vardır. Yazılı onomastik mənbələrdə saysız ad bildirən sözlərə rast gəlinir.

Antroponimika onomastikanın insan adlarını öyrənən əsas sahələrindən biridir. Azərbaycan dili zəngin və çoxşaxəli antroponimik sistemə malikdir. Bu sistem xalqın tarixi, mədəniyyəti, dini inancları, etnik tərkibi, psixologiyası və dil xüsusiyyətləri ilə sıx bağlıdır. Antroponimlər yalnız nominativ funksiya daşımır, həm də milli kimliyin, dünya görüşünün, estetik baxışın daşıyıcısıdır. Antroponimlər iki qrupa bölünür: əsas və köməkçi adlara. Onlar da, öz növbəsində, kiçik qruplara ayrılır.

1. *Antroponimlərin əsas növləri.*

Azərbaycan dilində antroponimlər, əsasən, aşağıdakı kateqoriyalara bölünür:

− Adlar (antroponimlər);
− Ata adları (patronimlər);
− Soyadlar (famillər);
− Ləqəblər və təxəllüslər;
− Ayamalar;
− Rəsmi-administrativ formalar və qeyri-rəsmi adlar;

2. *Antroponimlərin mənşə baxımından təsnifi.*

Azərbaycan antroponimləri müxtəlif mənşələrə bağlıdır:

− Türk mənşəli adlar: Alp, Bəxtiyar, Qorqud, Elçin;
− Ərəb mənşəli adlar: Əli, Hüseyn, Fatimə, Zəhra;
− Fars mənşəli adlar: Ramin, Lətafət, Gülnaz;
− Avropa mənşəli adlar (yeni dövrdə): Kristina, Diana, İlona.

Qeyd: Bəzi adlar isə morfoloji və semantik baxımdan qarışıq quruluşa malikdir, məsələn: Əlizamin (ərəb + türk komponenti). Belə adlara hibrid adlar deyilir.

3. *Antroponimlərin struktur xüsusiyyətləri.*

Adlar, əsasən, sadə, düzəltmə və mürəkkəb quruluşlu olur:

− Sadə adlar: Tural, Sevda, Kamal;
− düzəltmə adlar: Sevinc (Sev + inc), Sevgi (Sev + gi);
− Mürəkkəb adlar: Əliabbas, Şahnaz, Qızgül.

Bu struktur formalar estetik, poetik və semantik dəyərlər daşıyır.

4. *Antroponimlərin funksional rolu.*

Azərbaycan dilində adlar yalnız şəxsiyyəti fərqləndirmək üçün deyil, həm də:

- Arzu və diləkləri ifadə etmək – Bəxtiyar, Ümid, Tələbə;
- Dini inancı göstərmək – Hüseyn, Abbas, Zəhra;
- Tarixi şəxsiyyətləri yaşatmaq – Nizami, Babək, Məhsəti;
- Cəmiyyətin estetik meyarlarını əks etdirmək – Sevinc, Könül, Lalə;

5. *Tarixi inkişaf mərhələləri.*

Antroponimik sistemin formalaşması aşağıdakı dövrləri əhatə edir:

1. İslam öncəsi türk adları dövrü: Alp, Buka, Qutluq;
2. İslam sonrası ərəb-fars adlarının geniş yayılması;
3. Sovet dövrü: ideoloji adlar – Oktyabr, İnqilab, Elektron;
4. Müstəqillik dövrü: milli və orijinal adlara dönüş – Babək, Tunar, Göyçək.

6. *Müasir antroponimik meyillər*

− Milli kimlikli adlara marağın artması;
− Unikal və fərqli ad qoymağa meyil;
− Qədim türk adlarının bərpası;
− Qadın adlarında təbiət və gözəllik obrazlarının üstünlüyü: Günay, Aytən, Bahar;
− Ədəbi qəhrəman adlarından istifadə: Təhminə, Koroğlu, Səməndər.

Nümunələr və analiz

| N | Ad | Mənşəyi | Strukturu | Semantik yükü |
|---|---|---|---|---|
| 1 | Elçin | Türk | Sadə | Elçi, xəbər gətirən |
| 2 | Zəhra | ərəb | Sadə | Parlaq, nurlu |
| 3 | Səma | ərəb | Sadə | Asiman, göy |
| 4 | Günel | türk | Törəmə | Gün kimi, günə baxan |

Azərbaycan dilinin antroponimik sistemi çoxqatlı, funksional və dinamik bir sistemdir. Bu sistem təkcə adların məcmusu deyil, xalqın dil yaddaşının, tarixi keçmişinin və milli-mənəvi kimliyinin aynasıdır. Antroponimlərin tədqiqi dilçiliklə yanaşı, tarix, etnologiya, sosiologiya və mədəniyyətşünaslıq üçün də mühüm əhəmiyyət kəsb edir.

Antroponimlərin bir qolu da ləqəblərdir: Ləqəb – bir şəxsin adı ilə yanaşı işlənən, onu başqalarından fərqləndirən, bəzən də xarakterik xüsusiyyətlərinə əsaslanan qeyri-rəsmi addır. Azərbaycan antroponim sistemində ləqəblər xalq arasında geniş yayılmışdır və əsasən aşağıdakı funksiyaları yerinə yetirir [Баскаков, 1962:92].

7. *Ləqəblərin əsas xüsusiyyətləri:*

− Xarakter və ya davranış xüsusiyyəti bildirir: Qoçaq Vəli, Susqun Əli;
− Peşə və ya sənətə əsaslanır: Dülgər Məhəmməd, Zərgər Səlim;
− Fiziki xüsusiyyətə əsaslanır: Topal Qasım, Qarabığ Kazım;
− Yer və ya tayfa mənsubiyyəti göstərir: Təbrizli Ənvər, Borçalı İsmayıl;

− Tarixi yaddaş funksiyası daşıyır: Nəcməddin Sadəqov – "Qəhrəman general".

Qeyd: Ləqəblər bəzən təhqiredici, bəzən tərif xarakterlidir. Onların bir çoxu zamanla soyad və ya familiya kimi rəsmiləşmişdir.

Təxəllüslər – ədəbi və mədəni kimlik ifadəsi kimi işlənir, əsasən, yazıçı və şairlərə verilən qeyri-rəsmi adlardır.

Təxəllüs – ədəbi yaradıcı şəxsiyyətin (şair, yazıçı, sənətkar və s.) istifadə etdiyi ədəbi addır. Azərbaycan ədəbi mühitində təxəllüslər sənətkarın poetik simasını və dünyagörüşünü əks etdirir.

Təxəllüslərin funksiyaları:

− Simvolik mənalar daşıyır: Molla Pənah Vaqif – "dünyagörmüş, uzaqgörən";

− Əxlaqi və dini məna bildirir: Füzuli (ərəb. – dəyərsiz, fəqir; təvazökar mənasında);

− Şəxsi xüsusiyyət və ya adla bağlı olur: Natəvan – "köməksiz" (şəxsi həyatını əks etdirir).

Nümunələr: 1) M.Ə.Sabir (Mirzə Ələkbər Tahirzadə) – səbr edən deməkdir. 2) Xurşidbanu Natəvan – "Xurşid" sözü farsca "günəş" mənasını verən bir sözdür. 3) Müşfiq – (Mikayıl Əbdülqadir oğlu İsmayılzadə) təxəllüsünün mənası Azərbaycan dilinin izahlı lüğətində "Şəfqətli, mərhəmətli, Mehriban" kimi izah edilir [ADİL, 2006:206].

Səməd Vurğun (Səməd Yusif oğlu Vəkilov) − gözəlliyə, təbiətə, insanlığa, dogma yurduna vurğun olan şair belə bir təxəllüs seçmişdir.

Təxəllüslər poetik üslubun ayrılmaz tərkib hissəsidir və şairin dünyagörüşü ilə bilavasitə bağlıdır.

8. *Nisbələr – mənşə və kimlik göstəricisi kimi*

Nisbələr (nəsəb və ya mənsubiyyət bildirən formalar) – insanın hansı yerə, tayfaya, peşəyə, şəxsə bağlılığını ifadə edən antroponimik formalardır. Məsələn; Ordubadi, Təbrizi, Gəncəvi və s.

Nisbələrin əsas funksiyaları:

− Mənsubiyyəti göstərir: Təbrizli, Şirvanlı, Qarabağlı;

− Nəsil və soy göstəricisidir: Əliqulu oğlu, Həsənli;

− Peşə və ya sənətə bağlılıq bildirir: Şairzadə, Müəllimoğlu;

− Din və ictimai statusa əsaslanır: Seyidzadə, Hacızadə.

Müasir soyad sisteminin formalaşmasında şəkilçilər mühüm rol oynamışdır. SSRİ dövründə "-ov/-ova", "-yev/-yeva" şəkilçiləri ilə formalaşmış famillərin çoxu indi milliləşdirilir: Hacızadə, Nəsirli, Quliyev.

9. *Bədii və publisistik üslubda antroponimlərin istifadəsi*

Azərbaycan ədəbiyyatında antroponimlər:

− Poetik metafora və assosiasiya vasitəsi

− Tarixi simvol

− Milli yaddaş kodu kimi çıxış edir.

Məsələn: “Koroğlu kimi baş qaldırıb, Babək kimi döyüşdüm” – burada adlar simvolik adlardır və tarixi qəhrəmanların adları olduğu üçün qəhrəman obrazlarının yaradılmasında istifadə edilir.

Publisistik üslubda isə təxəllüslərdən aşağıdakı fubksiyaları yerinə yetirmək məqsədilə istifadə edilir:

− Rezonans effekti yaratmaq üçün;
− Tarixi və siyasi vurğulama məqsədilə;
− Milli kimlik mesajı məqsədilə.

Azərbaycan dilinin antroponimik sistemi zəngin, çoxqatlı və milli dəyərlərlə yoğrulmuş bir sistemdir. Bu sistem təkcə adlar məcmusu deyil, xalqın tarixi yaddaşını, mədəniyyətini, dünya görüşünü və psixoloji-mental kodlarını özündə əks etdirir.

Ləqəblər, təxəllüslər və nisbətlər bu sistemin əmələgətirici elementlərindəndir və həm rəsmi, həm də qeyri-rəsmi ünsiyyət sahələrində üslubi və funksional müxtəliflik yaradır. Onların elmi şəkildə araşdırılması antroponimikanın dilçiliyin sərhədlərindən çıxaraq, mədəniyyətşünaslıq və tarixşünaslıqla birləşməsinə şərait yaradır.

**Nəticə /Conclusion**

Azərbaycan dilinin antroponimik sistemi təkcə dilin nominativ resurslarının deyil, həm də xalqın milli-mədəni yaddaşının, tarixi təcrübəsinin və ictimai şüurunun güzgüsüdür. Antroponimlər vasitəsilə toplumun dünya görüşü, dini inancı, estetik düşüncəsi, psixoloji meyilləri və zamanla dəyişən sosial-mədəni münasibətləri öz əksini tapır.

Tədqiqat göstərir ki, Azərbaycan antroponimləri həm mənşəcə, həm də struktur və semantik baxımdan çoxşaxəlidir. Onların içərisində türk, ərəb, fars və rus mənşəli adlar, emotiv, dini, ideoloji motivasiyalarla formalaşmış adlar və nəslə mənsubiyyət bildirən nisbətlər, təxəllüslər, ləqəblər də xüsusi yer tutur.

## ƏDƏBİYYAT/REFERENCES

1. Azərbaycan dilinin izahlı lüğəti (2006). I c. − Bakı: Şərq-Qərb. − 744 s.
2. Əliyev, H. (1985). Ümumi antroponimika problemləri. – Bakı, 285 s.
3. Hacıyeva, N. (2020). Azərbaycan dilində ləqəblərin üslubi xüsusiyyətləri // Linqvistika problemləri. − Bakı: ADPU, − c.1, №2. − s.29-47.
4. Qocayeva, N. (2021). Təxəllüslərin üslubi-linqvistik xüsusiyyətləri // “Azərbaycan dili və ədəbiyyatın tədrisi” jurnalı. − №4. − s.35-44.
5. İbrahimova, S. (2024). Onomastik terminlər və onların semantic xüsusiyyətləri // “Azərbaycan dili və ədəbiyyatın tədrisi” jurnalı. − №1. − s.47-53.
6. Qurbanov A. (2019). Azərbaycan onomologiyasının əsasları. I c. – Bakı, − 280 s.
7. Qurbanov A. (2019). Azərbaycan onomalogiyasının əsasları. II c. – Bakı, − 432 s.

8. Qurbanova F. (1997). Oğuz mənşəli türk dillərində antroponimlər sistemi // "Dilçilik" jurnalı, № 3. – s.28-33

9. Qurbanova F. (2001). Antroponimiyanın nəzəri məsələlərinə dair. – Bakı,136 s.

10. Nuriyeva, M. (1999). Rus bədii ədəbiyyatında əski türk mənşəli adlar. // AOP, − № 7, s.28-35.

11. Paşayev, A. (2016). Azərbaycan təxəllüsşünaslığının ısasları. – Bakı, − 270 s.

12. Баскаков Н.А. (1962). Введение в изучение тюркских языков. – Москва, 386 стр.

13. https://azleks.az/online-dictionary/m%C3%BC%C5%9Ffiq

**Məqalə tarixçəsi**
*Daxil olub* *15.10.2025*
*Qəbul edilib* *04.11.2025*
*Nəşrə daxil olub* *Mirvari İsmayılova*
*filologiya elmləri doktoru, professor*